92 yaz2(Az)
Ə-36

# XX əsr AZƏRBAYCAN yazıçıları

## ENSİKLOPEDİK MƏLUMAT KİTABI



TEYMUR ƏHMƏDOV

92 ya 2(Az)
Ə 36

# XX ƏSR AZƏRBAYCAN YAZIÇILARI

Ensiklopedik məlumat kitabı

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 21396

«NURLAR»
Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı – 2004

**Rəyçilər:**

akademik MİRZƏ İBRAHİMOV

akademik MƏMMƏD CƏFƏR CƏFƏROV

akademik Kamal Talıbzadə

**Naşir:**

HACI İSMAİL ALLAHVERDİ

**Redaktor:**

NƏRGİZ RÜSTƏMLİ

**Əhmədov Teymur: XX əsr Azərbaycan yazıçıları.**
Ensiklopedik məlumat kitabı (Təkmilləşdirilmiş üçüncü nəşri).
«Nurlar» Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2004, 984 səh., şəkilli.

Bu kitab XX əsr Azərbaycan yazıçılarının həyat və yaradıcılığı haqqında ensiklopedik məlumat toplusudur. Burada öz əsərləri ilə milli-mənəvi xəzinəmizi zənginləşdirən yazıçıların biblioqrafik oçerkləri verilmişdir. Sovet hakimiyyəti dövründə repressiyaya məruz qalan və mühacirətdə – Türkiyə, İran, İraq, İngiltərə və digər xarici ölkələrdə yaşayıb-yaradan soydaşlarımızın, 1990-cı il yanvarın 19-dan 20-nə keçən müdhiş gecə – Sovet ordusunun Bakıya hücumu zamanı şəhid olan, həmçinin Qarabağ münaqişəsi başlananda doğma yurd-yuvasından didərgin salınan qələm sahiblərinin tərcümeyi-halı da kitaba daxil edilmişdir.

Geniş oxucu kütləsinə dəyərli hədiyyə olan ensiklopedik məlumat kitabı orta və ali məktəb müəllimlərinin, şagird və tələbələrin, ədəbi-ictimai fikir tarixi ilə maraqlanan hər bir qədirşünas ədəbiyyatsevərin stolüstü kitabı ola bilər.

ISBN—9952—403—38—0.

© Teymur Əhmədov, 2004
© «NURLAR» NPM, 2004



## FUNDAMENTAL ƏDƏBİ SALNAMƏ

Azərbaycan yazıçıları ensiklopedik məlumat kitabının təkmilləşdirilmiş yeni nəşri bütünlüklə XX əsri əhatə edir. Bu əsrdə Azərbaycan ədəbiyyatı son dərəcə zəngin, çoxcəhətli, sıx əlaqəli olması, ayrı-ayrı ədəbi şəxsiyyətlərin diqqətəşayan parlaq ictimai fəaliyyətləri, bədii yaradıcılıqları ilə səciyyələnir. XX əsr boyu yaranan saysız-hesabsız ədəbi-bədii məhsul böyük bir xalqın tarixini, mənəvi və mədəni zənginliyini mürəkkəbliyi ilə əks etdirir.

«Ensiklopedik məlumat kitabı» bütöv bir əsrdə həmin mərhələyə mənsub yazıçılar nəsli içərisindəki dəyişiklikləri, inkişafı əks etdirir. Yazıçı salnaməsi yaşından, mövqeyindən, şöhrət və vəzifələrindən asılı olmayaraq hər hansı ədəbi şəxsiyyətin dəqiq tərcümeyi-hal məlumatını, biblioqrafik göstəricilərini qısa, yığcam, olduğu kimi nümayiş etdirir. Hər yazıçı nəslini dəqiqliklə ifadə etmək məqsədi salnamənin müəllifinə imkan verir ki, bir əsr daxilində yüzlərlə yazıçının həyatındakı dialektik inkişafın mənzərəsini yaratsın.

Azərbaycan ədəbiyyatında dünya miqyasında şöhrətlənmiş yazıçılar nəsli yetişmişdir. Onların böyük hissəsinin əsərləri müxtəlif dillərə tərcümə olunmuş, adları vaxtaşırı bir çox ədəbi salnamələri bəzəmişdir.

Sovet dövrü Azərbaycan yazıçıları üçün də xətərsiz keçməmişdir. Onlarla klassik söz ustası müxtəlif repressiyaların, dövləti təcavüzlərin qurbanı olmuş, günahsız qətlə yetirilmiş, ömürlərini həbsxanalarda, uzaq Sibirin buzlu çöllərində başa vurmuşlar.

Ensiklopedik məlumat kitabının 1995-ci il nəşri əgər 887-yə qədər yazıçını əhatə edirsə, yeni nəşrdə bir sıra texniki qüsurlar islah edilmiş, haqlarında məlumat verilən yazıçıların ümumi sayı iki dəfədən çox artırılmışdır. Müəllif bəzi məlumatları təkmilləşdirmiş, dəqiqləşdirmiş, müasir ədəbi prosesi ayrı-ayrı yazıçıların yaradıcılıqları ilə əlaqələndirmişdir.

Salnamənin yeni nəşri Azərbaycan yazıçılarının həyatında baş vermiş hər cür rəqəm və keyfiyyət yeniliklərini də əks etdirir. «Ensiklopedik məlumat kitabı»nın nəşrdən-nəşrə belə zənginləşməsi, təkmilləşməsi onun müəllifi, filologiya elmləri doktoru, məşhur jurnalist və nasir, çoxsaylı elmi tədqiqatların, monoqrafiyaların sahibi, professor Teymur Əhmədovun zəngin təcrübəsi, zəhmətkeşliyi hesabınadır.

«XX əsr Azərbaycan yazıçıları» dedikdə həmin əsrin irili-xırdalı mənəviyyatı, ruhu ilə vətənin milli varlığına, fikir dünyasına bağlı ədəbi şəxsiyyətlərini, qələm sahiblərini nəzərdə tuturuq. Məlumdur ki, «XX əsr Azərbaycan yazıçıları» kitabı bütün dünyaya səpələnmiş XX əsr Azərbaycan mühacir ədəbi qüvvələrini də əhatə edir. Azərbaycan mühacirəti Azərbaycan mənəvi dünyasının ayrılmaz bir hissəsidir, bu baxımdan indiyədək mənbə, məlumat qıtlığı və məlum səbəblər üzündən ilk nəşrlərə düşməyən mühacir yazıçıların ciddi araşdırma nəticəsində təkmilləşdirilmiş yeni ensiklopedik məlumat kitabına daxil edilməsi diqqətə layiqdir.

Heç vaxt unutmamalıyıq ki, tarix boyu Azərbaycan yazıçıları, bədii söz ustaları olmazın işgəncələrə, təzyiqlərə məruz qalmışlar. Bircə sovet hakimiyyəti illərində yüzlərlə Azərbaycan yazıçılarının uzaq Sibir çöllərinə göndərilib məhv edilməsini, on illərlə qaranlıq zindanlarda saxlanıb qətlə yetirilməsini, İkinci Dünya müharibəsinin qızğın atəş nöqtələrinə sürgün edilmələrini xatırlamaq kifayətdir. «XX əsr Azərbaycan yazıçıları» ensiklopedik məlumat kitabının yeni nəşrində bu məhrumiyyətlər nəzərə alınmış, kitabın əhatə etdiyi rəqəm təkcə sayca yox, həm də məzmunca zənginləşmiş, tamamlanmışdır.

«XX əsr Azərbaycan yazıçıları» ensiklopedik məlumat kitabı adlanan biblioqrafik sorğu mənbəyindən bütün Azərbay-



## RAFİQ SƏMƏNDƏR
## (1949)

***Ələddinov Rafiq Səməndər oğlu – nasir, dramaturq, tərcüməçi, 1987-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Jurnalistlər Birliyinin üzvü (1975).***

1949-cu il yanvarın 10-da Azərbaycanın Quba rayonunun Rustov kəndində anadan olmuşdur. Bakıda 199 saylı şəhər orta məktəbini bitirmişdir (1966). Əmək fəaliyyətinə Bakı şəhərindəki 1 saylı avtobazada fəhlə kimi başlamışdır.

ADU-nun filologiya fakültəsinin axşam şöbəsində təhsilini davam etdirmişdir (1968-1978). Eyni zamanda avtobazada fəhlə, çilingər, evlər idarəsində texnik işləmişdir (1968-1972). Azərbaycan SSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində radio verilişləri üzrə kiçik redaktor (1972-1974), televiziyanın «Ədəbi-dram verilişləri» baş redaksiyasında redaktor, böyük redaktor, şöbə müdiri olmuşdur (1974-1988). Hazırda həmin redaksiyada baş redaktorun müavini vəzifəsində çalışır (1988-ci ildən).

Ədəbi fəaliyyətə 1970-ci ildə «Azərbaycan gəncləri» qəzetində dərc olunan «Mən və çinar», «Süfrə» adlı hekayələri ilə başlamışdır. Dövri mətbuatda vaxtaşırı çıxış edir. Televiziyanın «Səhər görüşləri» əyləncəli proqramında redaktor işlədiyi illərdə (1978-1985) yüzdən artıq miniatürü, yumoristik səhnəciyi mavi ekranda göstərilmişdir. «Günəbaxanlar», «Çətin məsələ» pyesləri tamaşaya qoyulmuşdur (1988). «Çətin məsələ» cizgi filminin ssenari müəllifidir. «Mozalan» satirik kinojurnalında süjetləri çəkilmişdir.

Əsərləri:

1. Fidan fəvvarələri, B., Gənclik, 1972, 40 səh., 11.000 nüs.
2. Ağappaq yollar, B., Gənclik, 1981, 120 səh., 10.000 nüs.
3. Gözəl, Gülər və güllər, B., Gənclik, 1984, 80 səh., 10.000 nüs.
4. Qara qar, B., Yazıçı, 1986, 130 səh., 10.000 nüs.
5. Şəhidlər, 1990.



## RAFİQ ŞAMİLOĞLU
## (1940)

***İmanov Rafiq Şamil oğlu – nasir, tərcüməçi, 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.***

1940-cı il fevralın 13-də Azərbaycanda Dağlıq Qarabağın Şuşa şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Yevlax şəhərində dəmiryol orta məktəbini bitirdikdən sonra M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunun alman dili şöbəsində təhsil almışdır (1960-1965). Əmək fəaliyyətinə təyinatla göndərildiyi Yevlax şəhəri Mehdi Hüseyn adına 4 saylı səkkizillik məktəbində müəllim kimi başlamışdır (1965-1968). Azərbaycan SSR Nazirlər Soveti yanında Mətbuatda Dövlət Sirlərini Mühafizə edən Baş idarədə redaktor, böyük redaktor işləmişdir. Hazırda orda şöbə rəisidir. Bədii yaradıcılığa 70-ci illərdən başlamışdır. Hekayələri və almancadan bədii tərcümələri dövri mətbuatda vaxtaşırı dərc olunmuşdur. «Ədalət naminə» pyesi xalq teatrında tamaşaya qoyulmuşdur (1984). «And» radio pyesi efirdə səslənmiş, həvəsləndirici mükafata layiq görülmüşdür. Alman dilindən doğma dilə çevirdiyi «Qara quş Xristiana» kitabı 1973-cü ildə nəşr edilmişdir. «Mavilik» (1985), «O dünyada nələr olur» (1990) hekayə və povestlərdən ibarət toplusu «Gənclik» nəşriyyatında çapdan çıxmışdır.



## RAFİQ TAĞI
## (1950)

***Tağıyev Rafiq Nəzir oğlu – nasir, 1989-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.***

1950-ci il avqustun 5-də Azərbaycanın Masallı rayonundakı Xoçcobanlı kəndində anadan olmuşdur. Təklə kənd orta məktəbində təhsil almışdır (1956-1966). N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsilini



davam etdirmişdir (1966-1972). Əmək fəaliyyətinə tələbə ikən Bakı Komvol kombinatında feldşer kimi başlamış (1970-1972), sonra Sabirabad rayonunda Yolçubəyli kənd ambulatoriyasında baş həkim işləmişdir (1972-1974). Sonra Masallı rayonunda Həsənli kənd xəstəxanasının baş həkimi (1974-1979), RSFSR Kalinin vilayəti Konakova şəhər mərkəzi xəstəxanasında terapevt (1979), Moskvada 23 saylı şəhər klinik xəstəxanasında ordinator (1979-1981) olmuşdur. İ.M.Seçenov adına I Moskva Tibb İnstitutunun daxili xəstəliklər üzrə klinik ordinaturasında təhsil almışdır (1981-1983). Sonra Moskva şəhər təcili və təxirəsalınmaz tibbi yardım stansiyasında həkimlik etmişdir (1983-1990). Hazırda Bakı şəhər və təxirəsalınmaz tibbi yardım stansiyasında (8-ci köməkçi stansiya) həkim vəzifəsində çalışır (1990-cı ildən). «Dədə Qorqud» jurnalının baş redaktoru olmuşdur (1993). Bədii yaradıcılığa 60-cı illərdən başlamışdır. İlk mətbu şeri 1968-ci ildə «Çağırış» Masallı rayon qəzetində dərc olunmuşdur. Tələbəlik illərində oçerk, məqalə və şerlərini institutun «Tibb kadrları uğrunda» qəzetində, həmçinin «Azərbaycan gəncləri» qəzetində çap etdirmişdir. «Fərqanə» hekayəsi 1977-ci ildə «Ulduz» jurnalında çıxmışdır. Bundan sonra hekayə və şerləri dövri mətbuatda vaxtaşırı nəşr olunmuş, ayrı-ayrı xalqların dillərinə tərcümə edilmişdir. «Drujba narodov» və «Krestyanka» jurnallarında hekayələri çap olunmuşdur. 90-cı illərdən «Hürriyyət», «Yeni Müsavat» və s. qəzetlərdə fəlsəfi esse, neopublisistik məqalələrlə vaxtaşırı çıxış etmişdir.

Əsərləri:

1. Yanaşı ulduzlar, B., Yazıçı, 1987, 146 səh., 7.000 nüs.
2. Düşmənimin xatirinə, B., Yazıçı, 1991, 126 səh., 10.000 nüs.
3. Pozitiv. Neqativ, B., Şur, 1996, 160 səh., 1.000 nüs.
4. Təpəgöz, qarışqa və uşaq, B., Yazıçı ədəbi nəşrlər evi, 1996, 1.000 nüs. (şərikli).
5. Ekstremal şerlər və hekayələrim, B., Adiloğlu, 2004, 700 səh., 500 nüs.



## RAFİQ YUSİFOĞLU
## (1950)

***Əliyev Rafiq Yusif oğlu – şair, ədəbiyyatşünas, tərcüməçi, 1986-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi (1984), «Qızıl qələm» mükafatı laureatı.***

1950-ci il yanvarın 2-də Azərbaycanın Qubadlı rayonunun Çardaxlı kəndində müəllim ailəsində anadan olmuşdur. Burada səkkizillik məktəbi, Qubadlı qəsəbə orta məktəbində onillik məktəbi bitirmişdir (1966). APİ-nin filologiya fakültəsində təhsilini davam etdirmişdir (1966-1970). Əmək fəaliyyətinə Sumqayıt şəhərində tərbiyəçi müəllim kimi başlamış, sonra isə orada 10 saylı orta məktəbdə ədəbiyyat müəllimi işləmişdir (1971-1972). Hərbi xidməti borcunu yerinə yetirəndən sonra Sumqayıt şəhərində 23 saylı orta məktəbdə müəllimlik etmişdir (1973-1985). Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında istehsalatdan ayrılmamaqla təhsil almış (1978-1982), «Azərbaycan poemasının inkişaf problemləri» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1984). «Göyərçin» jurnalında şöbə müdiri (1985-1992), məsul katib (1992-1996) olmuşdur. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin «Xəbərlər» baş redaksiyasında elm və mədəniyyət şöbəsinin müdiri (1996-1997) işləmişdir. Hazırda «Göyərçin» jurnalının baş redaktorudur (1997-ci ildən). Uşaq və gənclər ədəbiyyatı tənqidçilərinin Moskvada keçirilən birinci (1982), ikinci (1985) və üçüncü (1988) Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən beynəlxalq uşaq ədəbiyyatı günlərinin (1989) iştirakçısı olmuşdur. Moskvada Ali Komsomol məktəbinin jurnalistika kursunun müdavimi olmuşdur (1985). Ədəbi fəaliyyətə 1966-cı ildən başlamışdır. Dövri mətbuatda şer və məqalələrlə müntəzəm çıxış edir. Son illər bədii tərcümə ilə ciddi məşğul olur. Dünya uşaq ədəbiyyatının gözəl nümunələrini, F.Q.Lorkanın şerlərini dilimizə çevirmişdir. «Ətirli düymələr» kitabına görə mükafata layiq görülmüşdür. Əsərləri xarici dillərə tərcümə olunmuşdur. «İlin ən yaxşı kitabı», «Qızıl qələm», «Araz», «Vətən», «Tofiq Mahmud» ədəbi mükafatları laureatıdır.

Əsərləri:

1. Yurdum-yuvam (şerlər), B., Gənclik, 1983, 72 səh., 5.000 nüs.
2. Ətirli düymələr (şerlər), B., Gənclik, 1986, 88 səh., 5.000 nüs.
3. Ocaq yeri, B., Yazıçı, 1989, 88 səh., 5.000 nüs.
4. Aylı cığır (şerlər və poemalar), B., Gənclik, 1992, 256 səh., 4.000 nüs.
5. Qəm karvanı (şerlər və poema), B., 1997, 180 səh., 500 nüs.
6. Həsrət köçü (şerlər), B., 1998, 260 səh., 500 nüs.
7. Azərbaycan poeması: axtarışlar və perspektivlər, B., Elm, 1998, 300 səh., 500 nüs.
8. Xatirə kəcavəsi (elmi-publisistik məqalələr), B., Elm, 1999, 472 səh., 500 nüs.
9. Bahar qatarı (hekayələr və nağıllar), B., «Azərbaycan» nəşriyyatı, 1999, 40 səh., 3.000 nüs.
10. Kitabi-Dədə Qorqud, B., İşıq, 1999, 88 səh., 4.000 nüs.
11. Böyük arzuya gedən yol (şerlər), Azərbaycan, 2000, 48 səh., 4.000 nüs.
12. Təzə sevdalara doğru (şerlər və tərcümələr), B., Şuşa, 2000, 316 səh., 500 nüs.
13. Çiçək yağışı, B., Şuşa, 2000, 320 səh., 500 nüs.
14. Ədəbiyyatşünaslığın əsasları, B., Sabah, 2002, 228 səh., 500 nüs.
15. Söz çəməni (şerlər), B., Azərbaycan, 2002, 48 səh., 3.000 nüs.
16. Uşaq ədəbiyyatı (dərslik), B., Təhsil, 2002, 268 səh., 500 nüs.

